

# Körpü alyansı: Yeni strateji müttəfiqlik xəttinin konturları






**44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı tarixi qələbə ölkəmizin beynəlxalq nüfuzunu daha da gücləndirdi. Müharibənin ilk günlərindən etibarən beynəlxalq münasibətlər sistemində kimin haqqın, kimin isə təcavüzkarın tərəfində olduğu açıq şəkildə ortaya çıxdı. Bu dövr, həm də Azərbaycanın hansı tərəfdaşlarla əsl dostluq və qardaşlıq münasibətlərinə malik olduğunu sübut etdi. Xüsusilə Türkiyə ilə Pakistanın birmənalı və qətiyyətli dəstəyi əlaqələrin dərin mənəvi tellərdən qaynaqlandığını göstərdi. Müharibə günlərində və Zəfərdən sonra Azərbaycan, Türkiyə və Pakistanın bayraqları birgə dalğalandı. Rəsmi Bakı, İslamabad və Ankara arasında formalaşan üçtərəfli əməkdaşlıq platforması Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təminatında mühüm rol oynadı. Zəfərdən sonra Azərbaycanın xarici siyasət strategiyası daha da aktiv xarakter aldı. Bütün dünya gördü ki, Azərbaycan öz mövqeyində prinsipialdır: beynəlxalq hüququn normalarına, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət rəsmi Bakının əsas siyasi xəttidir.**

Ölkəmizin sıx dostluq və qardaşlıq əlaqələri qurduğu, qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi ölkələrdən biri qardaş Pakistandır. Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında formalaşan dostluq və qardaşlıq münasibətləri bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İki ölkə arasında əlaqələr təkcə siyasi deyil, həmçinin iqtisadi, hərbi, mədəni və humanitar sahələrdə inkişaf edir. Hər iki dövlətin bir-birinə göstərdiyi səmimi münasibət, qətiyyətli dəstək xalqlar arasında dərin tarixi bağların, ortaq mənəvi dəyərlərin və sarsılmaz dostluğun təzahürüdür. Tarixə nəzər salsaq görərik ki, Pakistan Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdəndir. İşğalçılıq siyasətinə qarşı çıxaraq Ermənistanı bu günə qədər rəsmi olaraq tanımayan Pakistan 30 ilə yaxın müddətdə Azərbaycanın haqq savaşını müdafiə edib. Xüsusilə 44 günlük Vətən müharibəsi dövründə Pakistanın siyasi və mənəvi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirildi. Bu dövrdə İslamabadın nümayiş etdirdiyi prinsipial mövqe qardaşlıq münasibətlərinin sınaqdan keçdiyi ən həssas anlarda belə dəyişməz qaldığını sübut etdi.

Ötən il iyulun 11-12-də Prezident İlham Əliyevin Pakistana dövlət səfəri iki ölkə arasındakı əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Səfər çərçivəsində Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə keçirdiyi görüşlərdə bu dostluğun və əməkdaşlığın dərin mahiyyətini xüsusi vurğuladı. Mətbuata bəyanatında qeyd etdi ki, bu münasibətlər xalqlarımızın tarixi yaddaşında yaşayan dostluq və qardaşlıq bağlarının nəticəsidir. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin "Səmimi dost və həqiqi qardaş öz qardaş ölkəsini ziyarət edir" fikri iki ölkə arasında münasibətlərin rəsmi çərçivələrdən daha geniş mənəvi müstəviyə keçdiyini nümayiş etdirir. Onun "fərqli dillərdə danışsaq da, qəlblərimiz bir döyünür" çağırışı isə Azərbaycan-Pakistan münasibətlərinin mahiyyətini göstərən ən səmimi ifadədir. Səfər çərçivəsində Azərbaycan ilə Pakistan arasında 38 sənəd imzalanıb.

Son illərdə Azərbaycanla Pakistan arasında qarşılıqlı səfərlərin intensivləşməsi, imzalanan sənədlər və birgə layihələr bu əməkdaşlığı praktiki müstəviyə daşıyıb. Müdafiə sənayesi sahəsində təcrübə mübadiləsi, təhsil və səhiyyə sahələrində əməkdaşlıq, gənclər və mədəniyyət proqramlarının həyata keçirilməsi münasibətlərin çoxşaxəli və dayanıqlı xarakter aldığını sübut edir. Ticarət dövriyyəsinin artırılması, nəqliyyat-logistika imkanlarının genişləndirilməsi və qarşılıqlı investisiya təşəbbüsləri gələcəkdə iqtisadi əməkdaşlığın daha da dərinləşəcəyinə işarədir. Eyni zamanda Pakistanın Cənubi Asiyada, Azərbaycanın isə Cənubi Qafqazda və Avropa ilə Asiyada strateji mövqeyi iki ölkə arasında nəqliyyat və enerji layihələri vasitəsilə daha sıx inteqrasiya üçün əlverişli zəmin yaradır.



Azərbaycan və Pakistan BMT, İƏT, Qoşulmama Hərəkatı kimi beynəlxalq və regional təşkilatlarda da bir-birini dəstəkləyir. Hər iki dövlət beynəlxalq hüquqa əsaslanan ədalətli mövqe nümayiş etdirir, işğal və separatçılıqla bağlı məsələlərdə prinsipial və ardıcıl siyasət yürüdür.

İki ölkə arasında hərbi əməkdaşlıq son illər xüsusi intensivlik qazanıb. Bu əməkdaşlıq bir neçə istiqaməti əhatə edir: müdafiə sənayesində tərəfdaşlıq, birgə hərbi təlimlər, yüksək səviyyəli qarşılıqlı səfərlər, zabitlər və hərbi kadrlar arasında təcrübə mübadiləsi. Pakistan Silahlı Qüvvələrinin regionda malik olduğu güc, texnoloji imkanlar və peşəkarlıq Azərbaycanın bu ölkə ilə hərbi tərəfdaşlığa xüsusi əhəmiyyət verməsinə əsas yaradır. Bu əməkdaşlığın ən mühüm mərhələlərindən biri Azərbaycanın müasir JF-17C "Thunder" çoxməqsədli döyüş təyyarələrini Pakistandan əldə etməsidir. Bu təyyarələr Pakistan və Çinin birgə istehsalıdır və yüksək manevr qabiliyyəti, döyüş hazırlığı, müasir texnoloji təchizatı ilə seçilir. 2023-cü il sentyabrın 25-də Prezident İlham Əliyevə həmin təyyarələrin təqdim olunması Azərbaycanın milli müdafiə qabiliyyətinin artırılması baxımından əlamətdar hadisədir. Həmçinin bu fakt Azərbaycan-Pakistan hərbi tərəfdaşlığının sadəcə dostluq və əməkdaşlıq səviyyəsində deyil, ciddi strateji ittifaq formatında inkişaf etdiyini təsdiqləyir.

Azərbaycan-Pakistan münasibətlərinin səmimi xarakterini daha aydın göstərən sahələrdən biri də humanitar əməkdaşlıqdır. Azərbaycan dövləti Pakistanda baş verən təbii fəlakətlər zamanı qardaş ölkənin yanında olub. İndiyədək Azərbaycandan Pakistana göstərilən humanitar yardımın ümumi dəyəri 9 milyon ABŞ dollarını ötüb. Bu yardımlar yalnız rəsmi səviyyədə deyil, vətəndaş cəmiyyəti, xeyriyyə fondları və könüllülər tərəfindən də həyata keçirilib. Heydər Əliyev Fondunun Pakistandakı fəaliyyəti sözügedən sahədə xüsusilə fərqlənir. Fond 2008-ci ildə Pakistanda baş vermiş güclü zəlzələdən zərər çəkmiş ərazilərdə bir sıra sosial layihələrə imza atıb. Ən yaddaqalan təşəbbüslərdən biri - Muzaffarabad şəhərində qızlar üçün məktəbin inşası humanitar dəyərlər baxımından böyük əhəmiyyət daşıyır. Fondun səhiyyə, təhsil və sosial infrastruktur sahələrində gerçəkləşdirdiyi layihələr Azərbaycan xalqının Pakistan xalqına verdiyi dərin dəyərin və sevginin simvoludur.

Ali səviyyəli qarşılıqlı səfərlər də münasibətlərin dərinləşməsində mühüm rol oynayır. Bu il fevral ayının 24-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Bakıya rəsmi dövlət səfəri iki ölkə arasında strateji əlaqələrin daha da inkişaf etdiyini göstərdi. Səfər çərçivəsində imzalanan sənədlər, aparılan danışıqlar, verilən bəyanatlar münasibətlərin qarşılıqlı inam və dostluq zəminində qurulduğunu bir daha sübut etdi. Baş nazirin səfər zamanı "biz uzaqda yaşayırıq, amma qəlblərimiz bir döyünür" mesajı əlaqələrin xalqlar səviyyəsində necə dərindən kök atdığını göstərir. Tərəflər bu səfərdə ticarət dövriyyəsinin artırılması, enerji, təhsil, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlığın daha da genişləndirilməsi məsələlərini müzakirə etdilər. Səfər çərçivəsində fevralın 24-də Bakıda keçirilən Azərbaycan-Pakistan biznes forumu iki qardaş ölkə arasında iqtisadi münasibətlərin yeni mərhələsinə keçid nöqtəsi oldu. Forumda liderlərin vurğuladığı əsas məqamlardan biri imzalanan sənədlərin yalnız formal aktlar kimi qalmaması, əksinə real iqtisadi və strateji əməkdaşlıq üçün effektiv alətlərə çevrilməsi zərurəti idi.

Prezident İlham Əliyev ticarət, enerji, nəqliyyat, elm və mədəniyyət sahələrində qarşılıqlı əlaqələrin genişləndirilməsinin vacibliyini xüsusi qeyd edərək bu istiqamətlərin hər iki dövlətin milli maraqlarına uyğun olduğunu bildirdi. Həmçinin vurğulandı ki, bu cür inteqrasiyalar regionda sabitliyə və əməkdaşlıq mühitinə mühüm töhfə verir.

Baş nazir Məhəmməd Şahbaz Şərifin Türkiyə, İran, Azərbaycan və Tacikistana rəsmi səfəri isə Cənubi Asiyadan Mərkəzi Asiyaya, Orta Şərqdən Cənubi Qafqaza uzanan yeni geosiyasi xəttin konturlarını cızır. Bu yeni format regional liderlərin bir-birilə sıx əlaqədə olduğu, qarşılıqlı asılılıqların əməkdaşlığa çevrildiyi bir model yaradır. Səfər zamanı liderlər arasında keçirilən görüşlərdə ikitərəfli münasibətlərlə yanaşı, regional təhlükəsizlik, enerji dəhlizləri, ticarət marşrutları və beynəlxalq siyasi dinamika müzakirə olunub. Xüsusilə son dövrlər Hindistan-Pakistan münasibətlərində yaranmış gərginlik fonunda dost ölkələrin Pakistana göstərdiyi dəstək, gələcək koordinasiyanın gücləndirilməsi baxımından əhəmiyyət daşıyır.

Azərbaycan bu inteqrasiya xəritəsində öz yerini tarixi və mədəni bağlarla, geosiyasi intellekt və strateji zərurətlə müəyyənləşdirir. Bakı İslamabad üçün Cənubi Qafqazda etibarlı tərəfdaş, energetika və nəqliyyat sahəsində isə regional qovşaq kimi çıxış edir. Hazırda Azərbaycan və Pakistanın əməkdaşlığı yalnız ikitərəfli deyil, çoxtərəfli formatlara əsaslanır.

İki ölkə arasındakı münasibətlərin daha da dərinləşdirilməsi üçün əsas hədəf bu əlaqələri institusional çərçivəyə salmaqdır. Ortaq iqtisadi komissiyalar, sənaye, ticarət, texnologiya və energetika sahələrində ixtisaslaşmış işçi qruplarının formalaşdırılması bu istiqamətdə mühüm addımlar olacaq. Yaxın dövrdə icra ediləcək ortaq layihələr və davamlı siyasi iradə münasibətləri möhkəmləndirməklə, həm də Azərbaycan-Pakistan tandemini yeni regional güc aktoruna çevirəcək. Bu güc isə hərbi və iqtisadi, humanitar, mədəni və mənəvi əsaslara söykənən, dərin və dayanıqlı əməkdaşlığın təcəssümüdür.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**